**İnsanı kədərləndirən arzuların ölümüdür**

Sevdiyim peşəmi - riyaziyyatı sevirəm və zənnimcə, özümü ifadə edə bilmişəm, düşüncəmin bərkiməsində və qanad açmasında riyaziyyat mühüm rol oynayıb. Digər sahələrlə - ədəbiyyat, tarix, fəlsəfə ilə də maraqlanıram, “az-az uydururam yeri gələndə”. İndiki işimdən də razıyam.

- Sizə görə həyatda ən asan və ən çətin şey nədir?
- Yaxşı söhbətə qulaq asmaq ən asan (və xoş) işdir. Səviyyəsiz və ya yenilikçi olmayan adamdan asılı olmaq bəladır.
- Ucqar bir kənddə yaşamağa məcbur olsaydınız, dolanışığınızı necə çıxarardınız?
- Kəndə baxır...Mədəni işlərlə məşğul olardım - kino, teatr-dram fəaliyyəti, musiqi, internet, müəllimlik...Və ya kənddə çatışmayan, zəruri olan məsələlərdən həll etməyə çalışardım.
- Keçdiyiniz ömür yoluna baxanda ən çox nəyə üzülür, nəyə sevinirsiniz?
- Yaxınlarımı itirdiyimə çox üzülürəm. Keçdiyi həyat yoluna baxanda adam adətən sevinmir, fikrə dalır, həzinləşir, kövrəlir; amma xoş xatirələr də olur, onları yada salanda adam gülür və ya onun üzünətəbəssüm qonur.
- Valideyn və müəllimlərdən başqa özünüzü kimlərə borclu bilirsiniz?
- Həyat yoldaşıma. O, məni çox qayğılardan azad edib ki, sevdiyim işlərlə məşğul ola bilim. Bir də dünyanı və insanı dərk etmək yollarını mənə açan, kitablarını, yazılarını oxuduğum dahilərə vəümumiyyətlə, istedadlı insanlara borcluyam.
- Uğrunda hər şeydən keçə biləcəyiniz varlığın adı?
- Ailəm, xalqım, vətənim, əsərlərim və bir də bütün insanlar mənə çox əzizdir.
- Özünüzü hansı peşədə daha yaxşı ifadə edə bilərdiniz? İndiki işinizdən razısınızmı?
- Sevdiyim peşəmi - riyaziyyatı sevirəm və zənnimcə, özümü ifadə edə bilmişəm, düşüncəmin bərkiməsində və qanad açmasında riyaziyyat mühüm rol oynayıb. Digər sahələrlə - ədəbiyyat, tarix, fəlsəfəilə də maraqlanıram, “az-az uydururam yeri gələndə”. İndiki işimdən də razıyam.
- Üzr istəmək sizə ağır gəlmir ki?
- Qətiyyən, yox. Üzr istəmək gözəl işdir, adam yüngülləşir.
- Sabir deyir: “Ağladıqca kişi qeyrətsiz olur”, siz necə düşünürsünüz?
- Kişiyə ağlamaq yaraşmır, kişi gərək ağlamasın. Amma, dünya fanidir və o, hamını ağlada bilir.

Nədəndir gen dünya mənə dar gəlir,
Sevinc üz döndərir, intizar gəlir?
Kişiyə ağlamaq yaraşmasa da
Bəzən ağlamamaq mənə ar gəlir.

- “Kaş ki ..... ölkədə doğulaydım, ..... xalqın nümayəndəsi olaydım” dediyiniz olurmu?
- Yox. Onda, məsələn, “Arşın mal alan” mənim olmazdı.
- Evinizdə inciklik olurmu? Olursa, birinci kim barışır?
- Olur. Mən də, həyat yoldaşım da çox tez barışırıq; küsülü qalanda adam darıxır.
- Özünüzü kimin qarşısında günahkar bilirsiniz və kiminsə günahını bağışlamısınızmı?

- Günahsız adam yoxdur.

Qəhrəmanlıq deyil suç işlətməmək,
O nə hünər istər, nə böyük əmək,
Məqsəd bu dünyadan suçsuz getməksə,
Heç nə eyləməmiş gedirik demək.

Başqalarının günahlarını bağışlaya bilirəm. Amma, eyni zamanda, mənim həyat prinsipləri mlə düz gəlməyənləri qəbul etmirəm.

- Sizcə azadlıq, istədiyini eləməkdir, yoxsa istəmədiyini?
-
Azadlıq düşüncədə kök salan tərəqqipərvər və başqalarının haqqını pozmayan işləri həyata keçir mək imkanının olmasıdır.

Bir insan ki getdiyi haqq yoludur,
Bir insan ki həqiqətin quludur,

Bir insan ki məhəbbətlə doludur -
Aramızda azad insan, bax, odur.

- Sevgi nədir: ümid, qorxu, ya xoşbəxtlik?
- Sevgi başqası ilə birlikdə olmaq xoşbəxtliyidir.

Eşq oddur, möcüzədir
İçimizdə közərir.
Eşq yanağa hərarət,
Gözə parlaqlıq verir.

Amma eşqin kamilliklə xüsusi əlaqəsi yoxdur, onda ümid və həyəcan da, hətta qorxu da var.

İtkisiz olmaz zəfər,
Yoxdur mütləq müzəffər.
Eşqdə kamillik gəzmə,
Sevgi yanlışlıq sevər.

- Ən çox nə zaman utanırsınız?
- Kimsə məni tərifləyəndə. Hətta özümü pis hiss edirəm.
- Ölüm nədir?
- Ölüm cismani yoxluqdur. Amma insanı kədərləndirən arzuların ölümüdür.

Ölümə nə var ki, gülüm?!
Bircə dəfə gəlir ölüm,
Ölüm deyil həyatda ən böyük zülm,
Yaşamaqdır bu dünyada ən ağır iş.
Varlığımız yoxluğa doğru bir giriş,
Həyatımız ölümə gedən yol imiş...

- Çoxlu pulunuz olsa, hara xərclərdiniz?

-
Xəzər Universitetini gücləndirərdim. Alimlərə şərait yaradardım. İstedadlı gənclərin oxumasına kömək edərdim. İş yerləri açardım.
-
"Mən almasam, bir başqası alacaq, mən olmasam, başqası olacaq" düşüncəsi nəyi ifadə edir?
-
Sual tam aydın deyil, dumanlıdır. Dumanların arxasından deyəsən, korrupsiya və biganəlik görü nür.
- Həyatda ən böyük təsəlliniz?

Hər ilin öz hökmü, öz hesabı var,
Verdiyi, aldığı yaxşı bəllidir.
Doğrudur, içində min əzabı var,
Amma var olmaq da bir təsəllidir.
Sadəcə yaşamaq - o da nemətdir,
Varlıq özü sirdir, özü zinətdir.

- Sizə hansı mövzuda sual verilməsini heç arzulamırsınız?
- Elə xüsusi arzum olduğu ağlıma gəlmir.
- Yubiley və ad günlərində özünüzü necə hiss edirsiniz?
-
Həmin günləri adi günə çevirməyə çalışıram (ailəm və dostlarım imkan verdiyi dərəcədə). Əslində belə günlər xoşuma gəlmir, dar dairəyə çəkilmək istəyirəm.
- Dünyanın hər yerindən görünən uca bir lövhəyə iki-üç kəlməlik nəsihət yazmağı xahiş etsələr, nə yazardınız?
- Nəsihətbaz deyiləm. Nə yazardım? Ədalət, həqiqət, məsuliyyət...
- Sizə görə insanda ən yaxşı və ən pis xarakter hansılardır?
- Çalışqan və ədalətli olmaq gözəl şeydir. Tənbəllik, yaltaqlıq və despotizm yaxşı deyil.
- Nə vaxtsa hansısa müğənniyə, sənətçiyə heyran, ya da aşiq olmusunuzmu?
-
Heyran olmaq, sevmək insani peşədir. Məsələn, Rəşid Behbudova necə heyran olmayasan, ya S ofi Lorenə?

- Övladlarınız sizi atsalar, onlara nə deyərdiniz?
- Heç nə. Nə deyə bilərəm ki?! Məncə onlar elə tərbiyə alıblar ki, bunu edə bilməzlər.
- Ən çox sevdiyiniz və sevmədiyiniz sözlər?
- Yoxdur.
- Fürsət olsa, ölümqabağı nə vəsiyyət edəcəksiniz?
- Bəzi arzularımın həyata keçirilməsini xahiş edərdim.
- Ən çox nədən qorxursunuz?
- Zorakılıqdan, qan tökülməsindən.
- Xoşbəxt olmaq üçün nəyiniz çatmır?
- Ağlım bir az da çox olsaydı...
- Sizin kimlərə və nə kimi xeyriniz var?
- Cavab vermək istəmirəm.
- Bu dünya bir insan şəklində qarşınızda dursa, ona nə deyərdiniz?

- Sən nə gözəlsən! Sən nə anlaşılmaz məxluqsan? Bu qədər də sirr gizlətmək olarmı?

- Həyatınızda sizə təklif edilmiş nədənsə imtina etmisinizmi?

- Əlbəttə. Şübhəli və şər işlərdən. Öz mənəvi dəyərlərimi yüksək vəzifə tutmaq üçün qurban verməkdən (nəzəri və ya xəyali deyil, olan hadisələrdən danışıram).

- Gənclik hansı yaşda bitir?

- Gənclik bitmir. Yaşlı adamda həm uşaqlıq, həm gənclik öz varlığını sürdürür, sadəcə insan söz və hərəkətində bir qədər ehtiyatlı olur. Yaşlı vaxtda insan hər dövrü - uşaqlığı, gəncliyi və yaşlılığı bildiyivə gözəlliyini içdən duyduğu üçün hər üçünü, hərəsini bir cür yaşayır...İnsanın gücü bundadır.

- Dostlarınız çoxdurmu? İnsanlar niyə dost olurlar?

- Var, az deyil, amma çox da deyil. İnsan tək fərd deyil, o, cəmiyyətin üzvüdür, ictimai varlıqdır. İnsan düşüncə və insani baxımdan ona yaxın olanlara ehtiyac duyur. Ailə, iş yeri və dostlarsız həyatyoxdur.

**Zaman.- 2011.- 26-28 fevral.- S. 5.**